**İlkin Həmidli**
**Magistrant**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**E-mail:** ilkin.hemid@mail.ru

# MÜASİR ABŞ KİNEMATOQRAFİYASINDA HORROR JANRI

**Xülasə:** 21-ci əsr ABŞ kinematoqrafıyasında insana qorxu, xof hissini güclü şəkildə yaşada bilən horror janrının bir çox nümunəsinə rast gəlirik. İnsanlar daha real, fövqəltəbiilikdən uzaq mövzularda olan filmlərlə yanaşı, eyni zamanda günah əməllərinin cəzasını çəkən, nəfsinə sahib ola bilmədiyinə görə mistik güclərlə savaşan insanların hekayələrinə də maraq göstərirlər. Bu məqalədə müasir ABŞ kinosunda məlum janrın nümunələri təhlil edilmiş və onların gətirdiyi yeniliklər, eyni zamanda istifadə etdikləri köhnə arxetiplər araşdılırmışdır.

**Açar sözlər:** horror janrı, ABŞ kinematoqrafiyası, qorxu hissi, yenilik.

Qorxu hissi bəzən bir insanın yaşadığı ümidsizliklər və ya uğursuzluqlar nəticəsində yaranır. Hər bir insanda normal şəkildə bu hiss vardır. Vəhşi heyvandan, düşməndən, qaranlıqdan, məchul bir şeydən qorxmaq təbii hissdir. Bu hiss həddi aşanda ciddi psixoloji xəstəliklərə səbəb olur. Müasir dildə həmçinin fobiya termini də oxşar mənada istifadə edilir. Təhlükə, fəlakət, böhran kimi anlayışlar gündəlik həyatımızla sıx bağlıdır. Qəzet səhifələrindən, televiziya ekranlarından hər gün yeni-yeni dəhşətli hadisələr, qətllər, fövqəladə hallar haqqında informasiya alaraq istər-istəməz düşünməli oluruq: bütün bunlar mənim də başıma gələ bilər. Elə ona görə insan özünü faciələrlə dolu bu dünyada dayaqsız və aciz hiss edir. Ona elə gəlir ki, təhlükə onu hər yerdə: evdə, mağazada, teatrda, evinin girişində və ictimai nəqliyyatda addım-addım izləyir. Bu baxımdan belə bir mövzunun ssenarist və rejissorların diqqətini çəkməsi də təsadüfü deyil. Böyük tamaşaçı auditoriyasının ortaq problemini gündəmə gətirmək, bəzən bu problemin həlli yollarını göstərib, bəzən yaranma səbəbini vurğulamaq da müəlliflərdən istedad tələb edir.

İllər keçdikcə insanların ekranda görmək istədikləri qorxu obyektləri də dəyişdi. Bu səbəbdəndir ki, horror janrı illər ötdükcə estetik dəyişikliklərə uğrayaraq daha da təkmilləşdirildi. Ötən əsrin ikinci yarısında ABŞ-da horror kinosu öz yüksəliş dövrünü yaşayırdı və xüsusən 60-70-ci illərdən sonra izləyicilər janrın ciddi nümunələrini tez-tez izləməyə başlayırdılar. Buna səbəb də hər il fərqli kino dilinə mənsub qorxu filmlərinin kinoteatr afişalarında öz yerini alması idi. Bu proses təkcə Birləşmiş Ştatlarda deyil, Yaponiya, Koreya, İtaliya və Fransada fərqli estetikalarda özünü təcəssüm edirdi. Millenium əsrinə

keçdikdən sonra isə janrın yüksəlişi yerini durğunluq ilə əvəz etdi. Yalnız 2015-ci ildən sonra janrın yeni kino dili yaradan nümunələrinə rast gəlməyə başlanıldı. XXI əsr insanının qorxu anlayışı da bunun nəticəsində dəyişdi. Artıq izləyici daha real, öz həyatında baş verə biləcək fövqəltəbiilikdən bacardıqca uzaq mövzularda filmlərə maraq salmağa başladı. "Found footage" filmləri, təriqət qurbanı olan insanların hekayələri, müxtəlif günahlar etdiyinə görə manyak tərəfindən əzablara məruz qalan insanlar barədə filmlər müasir dövrün qorxu anlayışının böyük bir hissəsini əhatə edir. Ancaq buna baxmayaraq günah əməllərinin cəzasını çəkən, nəfsinə sahib ola bilmədiyinə görə mistik güclərlə savaşan insanların hekayələri də gündəmdə qalmaqda davam edir.

Yuxarıda qeyd etdiyimiz kimi "Found footage" (ing. tərcümədə tapılan video qeydlər") filmləri də var ki, bunlar da ötən əsrin son ilində "Bleir cadugarı" (1999, rej. Deniel Merik və Eduardo Sançes) ekran işi ilə ABŞ kinosuna ilk addımını atdı. Found footage-in bəzi texniki özəllikləri var ki, bunlar əl kamerası, reallığa yaxın olması üçün qeyri-profesional çəkiliş tərzi, aktyorların özlərini oynaması, hadisələri birinci şəxsin baxış bucağından görmək, kadrların sənədli film üçün və ya təhlükəsizlik məqsədi ilə lentə alındığının filmdə səsləndirilməsi kimi xüsusiyyətlərdir. "Found footage" filmlərinin ABŞ kinosunda daha geniş kütləyə səs salmasını isə "Paranormal aktivlik" ( 2007, rej. Oral Peli) filmi və frençayzı səbəb oldu. Rejissorun debüt işi olan film Keyti və Miceh (Aktyorlar öz adları ilə çəkiliblər.) cütlüyünün yaşadığı evdə baş verən fövqaltəbii hadisələr barədədir. Ruhlardan çəkinən Keytini qorxularından azad etmək üçün evə kamera alan Miceh onunla günboyu məişət həyatındakı hadisələri çəkir və gecə yatan zaman yataq otağında baş verənləri qeydə alması üçün kameranı otağın küncünə qoyur. Nəticədə qapıların səbəbsiz yerə açılıb bağlandığı, Keytin yuxudan oyanıb lunatik kimi gəzərək Micehin başının üstündə saatlarla dayanması və s. hadisələr qeydə alınır.

Bu öz iqtidar çevrəsindəki (evindəki) kişinin qadınını narahat edən görünməz bir varlığa (Demon-cin) kamera və səs cihazları ilə meydan oxuması barədə filmdi. Hətta bir yerdən sonra Keyti çəkilişə qarşı çıxsa belə Miceh onun dediklərinə fikir vermir. Əksinə, görünməz varlıqla cin çağırma taxtası vasitəsilə əlaqə qurmağa çalışır. [1] Bütün bunların nəticəsində isə cin Keytin içinə girərək Micehi öldürüb ortadan yox olur və Keyti də bir daha görünmür.

2015-ci ildə Devid Robert Miçel tərəfindən "O izləyir" adlı horror filmi ekranlara çıxdı. 80-ci illər yeniyetmə sleşerlərinin konseptində lentə alınan film digər tərəfdən də bu janrın şablonlarını dəyişir, müasirləşdirir. Hadisələr Cey (Maika Monro) başda olmaqla bir qrup yeniyetmənin başına gəlir. Ancaq bu qrupda idmançı oğlanlar, qlamur paltarlar geyinən yeniyetmə qızlar yoxdur. Sadəcə öz bədənini təzə-təzə kəşf etdiyinə görə yeni tanış olduğu sevgilisi Ceflə (Ceyk Uiri) cinsi əlaqəyə girən və bu səbəbdən lənətlənərək hər cür insan

bədənində gözə görünən varlıq tərəfindən öldürülməyə çalışan Cey var. Müəlliflər sleşer filmlərində maskalar taxaraq öz qurbanlarına tərəf asta yerişlə yaxınlaşan qatillərdən ilhamlanaraq öz "məxluqlarını" asta yerişli, cəmiyyətin digər nümayəndələrindən fərqlənməyən, qatil olması gözlənilməyən insan kimi təqdim edirlər. Məxluq isə xüsusi fövqəltəbii gücə malikdir - o təkcə qurbanının gözünə görünür və qurbanın ətrafındakı istənilən insanın cildində ola bilər. Bu səbəbə görə film Con Karpenterin "Şey" filmini də xatırladır. Lənətin cinsi yolla çoxalması isə "Cinsi əlaqə pisdir. Əgər sevişsən şeytan sənin arxanca düşəcək" mesajını verən film xarakteri daşısa da əksinə lənətdən qurtulmaq üçün başqa insanla yenidən cinsi əlaqəyə girmək ehtiyacının olması filmin üstündəki dini baxış bucağını darmadağın edir. [2] Sevgilisi tərəfindən lənətlənən Cey məktəbdəki dərs otağından çölə baxan zaman ona tərəf gələn yaşlı, ayağı sarıqlı, yataq geyimində olan qadının fərqinə vararaq evə qaçır. Müəlliflərin məxluqu ilk dəfə bu formada göstərməsi "Ölü yaşayanlar gecəsi"ndəki zombiləri də yada salır. Devid Robert Mitçelin yaratdığı məxluqda həm zombilərdən, həm sleşerlərdəki manyaklardan, həm də ətrafdakıların gözünə görünməsə də seçdiyi adamı öldürməyə çalışmasına görə ruh arxetipindən ilhamlandığı açıq aydın gözə çarpır. Filmin baş qəhrəmanı Cey uzun müddət kiminləsə də sevişib lənəti özündən yan keçirtmək istəməsi barədə düşündükdən sonra xəstəxanada olan zaman qonşuluqda yaşayan Qreq Hanniqanla (Deniel Zovatto) sevişmək qərarına gəlir və bunun nəticəsində məxluq Qreqoqun gözünə anasının cildində görsənərək onu öldürür. Bundan sonra Cey öz dostları ilə Detroidin digər tərəfində yerləşən və uşaqlıq illərinin keçdiyi məktəb hovuzuna gedərək burada atasının cildində onu öldürməyə gələn məxluqa qalib gəlməyə çalışsa da bunu bacarmır. Çünki məxluq suda batmır, güllənin verdiyi xəsarətdən ölmür. Sadəcə yenidən güc toplamaq üçün müəyyən müddətlik yoxa çıxır. Filmin finalında Ceyin onu uşaqlıqdan bəri sevən Paul ilə sevgili olub əlaqəyə girdiyini, bundan sonra isə öz küçələrində əl-ələ gəzdiyini görürük. Onların arxasıca gələn adamın isə insan cildinə girən məxluq yoxsa adi adam olduğu bilinmir. Film bəzi suallara cavab vermədiyinə görə izləyicidə həyəcan yaradır. Bu da öz növbəsində qorxu hissinə zəmin rolu oynayır. Gərginliyin artmasında musiqi tərtibatı və operator işi də xüsusi rol oyanır.

Müasir ABŞ kinematoqrafıyasında fərqli horror nümunəsi nümayiş etdirən rejissorlardan biri də Robert Eggersdir ki, o öz debütündən dörd il sonra ikinci tammetrajlı filmi olan "Mayak"(2019) ilə yenidən qorxu janrına müraciət edir. Dram və fantastika janrının elementlərini öz filmində qorxu ilə yanaşı işlədən müəllif filmində dənizin ortasındakı kiçik bir adadakı mayaka nəzarət etmək üçün gəmi ilə buraya gələn gənc Efraim Vinslov (Robert Pattinson) və illərdir mayaka nəzarət edən Tomas Veikin (Villiyam Defo) hekayəsini ekrana

daşıyır. Çox da söhbətcil olmayan Efraim qoca gözətçidən görməli olduğu işi qısa bir müddətdə öyrənir. Ancaq yaşlı Tomas öz yerini gəncə vermək niyyətində deyil. Bu səbəbdən də onlar arasında iqtidar mübarizəsi başlayır və qadın olmayan bir məkanda iki kişinin arasındakı münasibətlər gərgin formada süjet xəttini irəlilədir. Cütlüyün adaya ayaq basdığı ilk andan Tomas Efraimə mayaka çıxmağı qadağan edir. Vinslov isə bundan əvvəl bir çox işlərdə işləyib daim uğursuz olduğuna görə mayakı ələ keçirməyi özünə hədəf seçir və ona elə gəlir ki, əgər istəyinə layiq olsa başına gələn bütün uğursuzluqlarını təmsil edən mayak onu xoşbəxt edəcək. Hadisələr Efraimin baxış bucağından təqdim edilir. Tomasın orada olandan xəbərdar olması, Efraimin isə görməsi qadağan olan bir sirri açmaq istəyi mayakı sirrli bir obyektə çevirir və nəticədə işin içinə mistika daxil olur. Eyni zamanda müəllif mayakı qorxu ünsürü kimi də təqdim edir. Əvvəlki köməkçinin mayakın təsirinə düşərək ölməsi xəbərini öyrənən Efraim eşitdikləri ucbatından düşdüyü yerin təhlükəli olduğunu və qocadan ehtiyyatlanmaq lazım olduğunu başa düşür.

Qəhrəmanların yaş faktorlarını nəzərə alsaq filmdə atalar və oğullar, köhnə ilə yeni arasındakı mübarizə də gözə çarpan şəkildə önə çıxır. Ancaq burada digər müxtəlif faktorlar da olduğuna görə (Efraimin adadakı qağayılarla mübarizəsi və s.) nə köhnə, nə də yeni qalib gəlmir və hər ikisi nəfslərinə məğlub olurlar. Efraim qoca Toması öldürdükdən sonra mayaka çıxır və Pandoranın qutusu açılır. Gördüklərinin nəticəsində heyrətlənən Vinslov təsadüfən mayakdan yıxılaraq ölümcül yararlanır və qağayılara yem olur. Film boyu qadın cinsinə aid olan bir varlıq gözə çarpmır. Bəzi qənaətlərə görə cinssiz olduğu hesab edilən su pərisinin qadın simasında Efraimin yuxusuna girməsi isə gərginliyi daha da artırır. Qadın varlığının kişi üçün ən böyük qorxuların qaynağı olduğu filmin ötürdüyü mesajdır. [3]

Müsahibələrinin birində Eggers film haqqında dəniz rəvayətlərində adı hallanan 1801-ci ildə baş verən Smalls mayakı faciəsi adlı hadisədən ilhamlandığını vurğulayır. Rejissor filmi 35 mm lentə çəkməklə və digər rənglərdən imtina edərək ağ-qara görüntü ortaya çıxarmaqla lal kino dövründə çəkilən səssiz qorxu filmlərinin, ekspressionist ekran əsərlərindəki abu-havanı da yaratmış olub. Hər kadrı izləyiciyə əvvəllər hiss etmədiyi növ duyğular yaşamasına səbəb olan film ekrandakını Efraimin zehnindən görməyə məcbur edən görüntüyə çatdırır. Çünki qəhrəmanlar qasırğanın, tənhalığın, içkinin və dil tapa bilməməyin təsirindən reallıqdan uzaqlaşaraq bir növ illuziyalar aləminə keçiblər.

Robert Eggersin "Mayak"ı müəllif filmidir və qorxudan çox gərginlik yaradaraq özündə bəzi sirrləri saxlamağı seçir. Bu da izləyicinin filmin yaratdığı ovqatdan təsirlənərək həyəcanlanmasına səbəb olur.

**Ədəbiyyat:**

1. History of Horror. New York: Norton, 1993. ISBN 978-0859652117.
2. Andrea Sauchelli «Horror and Mood», American Philosophical Quarterly, 51:1 (2014), pp. 39-50.
3. Gina Wisker, Horror Fiction: An Introduction. New York: Continuum, 2005. ISBN 978-0826415615.
4. https://www.haberturk.com/yazarlar/mehmet-acar/224913--8216-paranormal-activity-8217-ye-dikkat
5. https://www.herseygeeki.com/2019/05/18/it-follows-inceleme/
6. https://www.filmloverss.com/the-lighthouse/
7. David J. Skal[en], The Monster Show: A Cultural

## Жанр ужасов в современном кинематографе США

**Резюме**

В Американском кино XXI века мы сталкиваемся со многими примерами жанра ужасов, где человек испытывает сильное чувство страха. Люди интересуются не только более реалистичными, далёкими от сверхъестественных тем фильмами, но и историями людей, которые наказаны за свои грехи и борются с мистическими силами, потому что они не могут контролировать свои желания и поступки. В этой статье были проанализированы известные примеры фильмов, относящихся к жанру ужасов в современном американском кино, а так же исследованы нововведения и архетипы, которые были в них использованы.

**Ключевые слова:** жанр ужасов, американский кинематограф, чувство страха, новизна.

## The horror genre ın modern cınema of the United States

**Summary**

In the 21st century American cinema, we come across many examples of the horror genre that can evoke a strong sense of fear. In addition to films that are more realistic and far from supernatural, people are also interested in the stories of people who are punished for their sins and have to fight against mystical forces for being unable to control their desires. This article analyzes examples of the fore mentioned genre in modern American cinema and examines the innovations they bring, as well as the old archetypes they use.

**Key words:** horror genre, American cinema, sense of fear, novelty.